# HEYVANLAR aləminin ensiklopediyası

16582



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı. Maarif. 2015

28.6я2
H 47

Heyvanlar aləminin ensiklopediyası (meşə, dağ, çöl-səhra, dəniz-çay, ev heyvanları, cücülər, balıqlar və quşlar). Bakı-2015, «Maarif», 128 səh.

H $\frac{5001000000}{M\ 653/07/2015}$ 78-94

ISBN 5-8020-1196-3

© «Maarif», 2015



## TÜLKÜ

Tülkü ət yeyən vəhşi heyvanların ən hiyləgəridir. Gecə ova çıxır, hindən toyuq-cücə aparır, dovşan ovlayır, yuvasına gətirib yeyir. Tülkü öz yuvası olmayanda özgə heyvanın yuvasına güclə soxulur. Tülkü dovşan tutmaq istəyəndə özünü ölülüyə vurur. Beləliklə dovşanı aldadır və tutub yeyir. Tülkü balıq tutmaq istəyəndə quyruğunu suya sallayır, balıq onun quyruğuna toxunan kimi cəld balığı dartıb sudan kənara çıxarır.

## CANAVAR

Canavara Avropanın hər yerində rast gəlmək olur. Canavar ya tək, ya kiçik sürü ilə gəzir. Qışda canavarlar çox qorxuludur. Sürü ilə mal-qaraya hücum edirlər. Ac olanda qoyuna, marala və bəzən insana da hücum edir. Canavarlar, adətən, insanlardan qorxub gizlənir, yaşayış yerlərindən uzaqlarda gəzirlər.
Canavar kirşə, ya araba arxasına düşüb gedəndə soxulmağa cəsarət etmir. Bir heyvan və ya insan təkləndikdə canavar ona asanca hücum edə bilər.







## VƏHŞİ DOVŞAN

Vəhşi dovşan xeyirsiz heyvandır. Çox həssaslığı və çəldliyi ilə seçilir. Bütün günü yuvasından çıxmır, yemini gecə axtarır.
Vəhşi dovşan çöllərdə sərbəst qaçmağı, səhərlər atılıb-düşməyi sevir, birdən dörd metr atıla bilir. Saatda altmış kilometr sürətlə qaçır.

## KİRPİ

Kirpi tikanları olan kiçik bir heyvandır. Ona "tikanlı donuz balası" da deyirlər. Kirpi çox hiyləgər və acgözdür. O, çöldə, meşədə olan çoxlu həşəratı, cücüləri yeyir. Kirpi yeganə kiçik heyvandır ki, ilandan qorxmur, bəzən ilanı da öldürür. Kirpiyə hücum olunanda yumaq kimi yumrulanır, cır şabalıda oxşayır. Biz-biz dayanan tikanlarına görə ona toxuna bilmirlər.







## DƏLƏ

Dələ sıx meşələrdə, pöhrəliklərdə yaşayır. Palıd qozası və cır meyvə yeyir. Səhərdən axşama qədər hərəkətdədir, budaqlarda atılıb-düşür. Dələni asanlıqla ələ öyrətmək olur. Kiçik vaxtı qəfəsdə qalmağa da adət edir, qəfəsdə də atılıb-düşür, çox çəlddir.
Dələ çox huşsuzdur. Yığıb gizlətdiyi şeylərin qozanın, dənin, qozun yerini yadından çıxarır.



## UÇAN SİNCAB

Uçan sincab isti iqlimli yerlərdə, meşələrdə və yüksək dağlarda yaşayır. Qabaq və dal ayaqlarını birləşdirən qanad kimi dərisi ona bir ağacdan başqa ağaca atılmağa imkan verir. O yalnız gecələr ova çıxır. Gündüzlər ağac başında sakitcə əyləşir.
Uçan sincab ən uca ağacın oyuğunda olur, yalnız bitki yeyir.



## PORSUQ

Porsuq bütün günü yatır, yuvasından gecə çıxır. Şimali Avropada qış yuxusuna, yay çox isti keçən yerlərdə isə (İranda) yay yuxusuna gedir.
Porsuq çox faydalı heyvandır, meşədə, çöldə çoxlu zərərverici həşəratı məhv edir. O, ilanlarla da vuruşmaqdan qorxmur.



## VƏHŞİ QABAN

Vəhşi qaban bir çox Avropa ölkələrində yaşayır. Kiçik sürətlə gəzir. İnsandan qaçmasına baxmayaraq, qaban insan üçün qorxulu da ola bilər. Qaban palıd qozası yeyir. Qabanın əti çox dadlıdır. Dərisindən əlcək hazırlanır, çamadan və başqa şeylərdə istifadə edilir. Qaban vuruşmamaq üçün düşməndən qaçır. Lakin yaralanandan, ya vuruşa məcbur olandan sonra heç bir vəhşi heyvanın qabağından geri çəkilmir.
Qabanı itlə ovlayırlar.







## DAĞ KEÇİSİ

Dağ keçisi dağlarda və dağ meşələrində yaşayır. İri, güclü buynuzları var. Otyeyəndir. Qayalara, sıldırım dağlara asanlıqla dırmaşır. Çox cəlddir, iti qaçır. Onu tutmaq mümkün deyil. Qayadan qayaya sıçrayıb sürətlə uzaqlaşır. Çox həssasdır, düşmənini uzaqdan duyur. Əti yeməlidir. Ovçular onu ətinə görə ovlayırlar.

## CEYRAN

Ceyran çox gözəl və zərif heyvandır. O, quru çöllərdə yaşayır. Onun qəşəng zil qara gözləri, nazik ayaqları olur. Dırnaqlarına elə bil qara lak çəkilib. Gəzəndə tez-tez, oğrun-oğrun dönüb arxaya baxır.
Ceyran bəzən aylarla susuz qala bilir, yaşadığı yerin otu, ələfi ilə dolanır.





## MARAL

Maralların ən gözəli nəcib maraldır. Ovçular üçün o ən qiymətli ov sayılır. Maralın erkəyi hər il yayın isti çağında buynuzlarını dəyişir.
Maralın erkəkləri yayda sürüyə başçılıq etmək üstündə döyüşürlər. Bəzən də buynuzları bir-birinə elə ilişir ki, onları ayıra bilmir və dartınıb ölürlər.



## ŞİMAL MARALI

Şimal maralı soyuq ölkələrdə yaşayır. Xizəyə qoşulur və minik kimi istifadə olunur. Sürü halında yaşayır, maral otu adlanan şibyələrlə, bəzən də mamırlarla qidalanır. Şimal maralını əhliləşdirmək asandır. İnsana tez isinişir. Dərisi baha qiymətə gedir. Dərisindən paltar tikirlər.







## SIĞIN

Sığın maral cinsindəndir. Maralla fərqi ondadır ki, sığın həm böyükdür, həm də buynuzu kürək kimidir. Sığın ot, yarpaq, ağac şirəsi və yeni cücərmiş bitkiləri yeyir, buna görə də kənd təsərrüfatına müəyyən qədər zərər vurur. Sığını dadlı ətinə görə, faydalı buynuzuna görə ovlayırlar. Sığın baharda buynuzunu salır, yay çıxanadək təzə buynuz çıxarır.

## ASLAN

Aslana meşə sultanı deyirlər, əslində isə o, kolluq və qamışlıq sultanıdır. Çox hiyləgər və tənbəldir. Aslan öz ovunu cəngəllikdə gizlədir. Kiçik və böyük ot yeyən heyvanlara zebuya, ceyrana və dəvəyə hücum edir, onları parçalayıb yeyir. Aslan öz ovu üçün çox dəhşətlidir, külək tutmayan tərəfdə gizlənir ki, ov onun iyini hiss etməsin. Sonra birdən ovun üstünə atılır və onu parçalayır.





16582

## PƏLƏNG

Pələng yırtıcı, həm də çox yaraşıqlı heyvandır. Ona Asiyada, xüsusilə Hindistanda tez-tez rast gəlmək olar. Pələng mağarada yaşayır. Başqa heyvanları ovlayır. Dişi pələng balalarını çox istəyir. Onlara yaxınlaşana hücum edir.

Pəncəsinin üç-dörd zərbəsi ilə camışı öldürür. Ağır ovu dişinə alıb qaça bilir.





Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**BƏBİR**

Bəbir pişik cinsindəndir. Afrika və Asiyada yaşayır. Əhliləşdirib sirkə gətirirlər. Dəmir qəfəsdə uzun zaman yaşaya bilir. Çox acıqlı olmasına baxmayaraq balaları, pişik balası kimi, sakit və mülayimdir. Bəbir ən qorxunc yırtıcı heyvanlardandır.
Bəbir meymunu tutmaq üçün sıx meşədə özünü ölülüyə vurur. Meymun ona yaxınlaşanda üstünə atılıb onu öldürür.







**PUMA**

Pumaya «dağ şiri» də deyirlər. Çox hiyləgər heyvandır. Qayadan-qayaya atılıb əylənir. Yırtıcı heyvandır, lakin insana nadir halda hücum edir. Puma tez və asan əhliləşir. Ən çox Şimali və Cənubi Amerikada yaşayır.

## VAŞAQ

Bu, Kanada vaşağıdır. Vaşaq dovşanı, sincabı və dəniz donuzcuğunu tutmağı çox sevir. Vaşaq həm cəld yuxarı dırmaşa bilir, həm də suda yaxşı üzür. O çox qorxulu heyvandır. Ancaq adamdan qaçır. Vaşağın dərisindən əlcək hazırlanır.







## ZEBR

Zebr başı və bədəni at və ulağa bənzəyən qəribə bir heyvandır. Qara zolaqları var. Zebrlər kiçik sürülərlə təmiz sulara yaxın yerlərdə yaşayır. Zebri əhliləşdirmək çətindir, sərbəst yaşamağı sevir. Ona yaxınlaşanda narahat olur, təpik atır.
Zebr başqa heyvanların sürülərinə qatışır, onlara isnişir, həmən sürüyə başçılıq və gözətçilik edir.



ZÜRAFƏ

Boyca zürafə bütün heyvanlardan uzundur. Seyrək ağaclıqda, kolluqlarda yaşayır. Boynunu uzadıb təzə açılmış yarpaqları və kövrək zoğları qoparır, amma otları yeyəndə çətinlik çəkir, çünki uzun boynunu aşağı əyməli olur.
Zürafə laldır, bəzən azacıq mələyir. Boynu uzun olduğundan qorxulu düşmənini səhrada lap uzaqdan görür.





KENQURU

Kenquru Avropanın zooparklarına Avstraliyadan gətirilmişdir. Kenqurunun qarnında kisə olur. Dişi kenquru balasını həmin kisədə saxlayır. Kenquru çox gözəl heyvandır, ancaq dəcəldir.
Kenqurunun balaları bir neçə santimetr uzunluğunda doğulur, lakin tez böyüyür. Kenquru qabağa atılanda quyruğu ilə müvazinətini saxlayır. O, quyruğu ilə özünü də qoruya bilir.



## KİSƏLİ AYI

Bu qəşəng, kiçik kisəli ayının tükü çox incə və sıx olur. Kisəli ayı Avstraliyada yaşayır. Evkalipt ağacının yarpaqlarını yeyir. Qiymətli dərisinə görə bir zamanlar onu çox tuturdular. Kisəli ayı indi çox az qalıb. Kisəli ayı heç vaxt su içmir. İl boyu evkalipt ağacından yerə enmir. Ağacın budaqlarında yatır, dırnaqları ilə ağacdan yapışıb başı aşağı sallanır. Balası sözə baxmayanda anası onu dizinin üstünə qoyub o qədər vurur ki, lap əldən düşür.





## AFRİKA KƏRGƏDANI

Kərgədan Afrikanın sıx kolluqlarında yaşayır. Yarpaqları qırıb yeyir, bəzən də dəhşətli burnu ilə kolları yerdən çıxarır. Vəhşi heyvan ona hücum edəndə, onu qovanda, yöndəmsiz bədəninə baxmayaraq sürətlə qaçır. Kərgədanın dərisi o qədər bərkdir ki, Afrikanın ucqarlarında yaşayan adamlar ondan qalxan düzəldirlər. Kərgədanın qırış-qırış dərisinə çoxlu həşərat yığılır. Quşlar uçub kərgədanın üstünə qonur, həmin həşəratı dənləyirlər.

## LAMA

Lama Peruda yaşayır. Yunu yüksək keyfiyyətlidir. Vəhşi lamalara quanako deyirlər, onlar sürü ilə gəzir. Lama dəniz səthindən dörd min beş yüz metr yüksəklikdə yaşayır. Lamalar çox ürkək olur. Cənubi Amerikada lamaların iki növünü əhliləşdirmişlər: lama və alpaka.







## TİMSAH

Timsah heyvanların ən çirkinidir. Şəkildə gördüyünüz Cənubi Amerika timsahıdır. Timsah çox acgözdür, hətta dəniz bağasından da acgözdür. Uzunluğu altı metrə çatan bu heyvan Afrikanın göllərində və çaylarında yaşayır. Timsah çox hiyləgər və səbirlidir. Çaydan su içən heyvanı güdüb tutur.



## NİL ATI

Nil atı (begemot) ancaq Afrikada olur, sürü ilə kol-koslu çay sahillərində yaşayır. Günün bir hissəsini suda mürgüləyir. Asta yerişinə, yekəpər olmasına baxmayaraq quruda yaxşı qaçır.
Nil atının əti çox dadlı olur. Yerli sakinlər qayıqlarla begemota yaxınlaşır, boğazına ağac tıxayıb onu tuturlar.



## YENOT

Yenota "təmizkar ayı balası" da deyirlər. O, yemini təmizləyib sonra yeyir; iqlimi soyuq və mülayim ölkələrdə yaşayır. Boyu səksən-doxsan santimetrə qədərdir. Gündüzlər ağaclara dırmaşır, gecələr isə çay kənarında ova çıxır.
Yenot balıq tutmaq üçün çay və gölün lap sahilində pusquda dayanır. Tutduğu balığı bir az oynadır, sonra təmizləyib yeyir. Buna görə də ona təmizkar ayı balası deyirlər.



## BAYBAK

Baybaklar kiçik dəstələrlə yüksəkdə, çılpaq dağlarda yaşayır. Qışı özləri düzəltdikləri yuvada yatırlar. Baybaklar yalnız ot yeyirlər. Baybakın dərisi çox qiymətlidir.







## QUNDUZ

Qunduza heyvanlar aləminin mühəndisi deyirlər. Meşələrdə və çay sahillərində yaşayır; ağac qabığını və zoğlarını yeyir, suyun qabağında çubuqlardan bənd tikir, suyun altında lağım düzəldir. Bu lağım onun yuvasından quruya çıxır.

Qunduzun dərisi qiymətlidir. Kürək şəkilli quyruğu sümük kimi bərk maddədən ibarət pulcuqlarla örtülü olur. Qunduzun narıncı rəngli kəsici dişləri çox möhkəmdir, onlar getdikcə uzanır. Qunduz iki gecədə 30 santimetr yoğunluğunda ağacı gəmirib kəsir.



## KÖSTƏBƏK

Köstəbəyə Avropada çox təsadüf edilir. O, yerin altında lağım atıb yuva düzəldir və balalarını orada qayğı ilə bəsləyir. Köstəbək qüvvətli iti caynaqları ilə torpağı qazır, özünə yem tapır.
Qədim zamanlarda köstəbəyin ətini dərman bilirdilər.





## BİZON

Bizon çəmənliklərdə yaşayır, bəzən də meşəlik yerlərə keçir. Bizonun döşü və boynu uzun tüklərlə örtülür, bədəninin qalan yerləri az tüklü olur. Bizonlar böyük sürülərlə yaşayır. Sürülərdə bir zamanlar minlərlə bizon olurmuş.
Bizonlar çox uzun yol gedə bilir. Çox ovlandıqları üçün bizonların sayı azalmışdır. Onları qırmaq qadağan edilmişdir.



## AFRİKA CAMIŞI

Bu camış Afrikada çayların, göllərin kənarlarında yaşayır. Afrika camışı vəhşi heyvandır, əhliləşdirmək mümkün olmur. Onun düşməni şir və insandır, onlara rast gələndə dərhal hücum edir.

Afrika camışı lilə girir, bataqlıqda uzanır, üstünü zığla örtüb özünü həşəratdan qoruyur. Quşlar onun üstünə qonub üstündəki parazitləri məhv edir.





## MÜŞKLÜ ÖKÜZ

Bu heyvana müşkünə görə belə ad verilib. Müşklü öküzün bədəni tüklə örtülüdür. O, çox güclü və döyüşkən heyvandır. İti buynuzludur. Ayı və canavarla da vuruşmaqdan çəkinmir. Təhlükə hiss edəndə müşklü öküzlər balalarını dövrəyə alıb onları qoruyurlar. Müşklü öküz qışda yunlu olur. Dadlı ətinə görə ovlanır.

## ŞİMPANZE

Şimpanze Afrika cəngəlliklərində yaşayır. Hər şimpanze sürüsü bir ailədir. Ailə bir neçə ata, ana və bala şimpanzelərdən ibarət olur. Erkək şimpanzelərin boyu dişilərdən uzundur. Şimpanzelər ağacların zoğunu və meyvələrini yeyirlər.
Şimpanzeyə paltar geydirəndə xoşuna gəlir. O, insanların yanında insan kimi yemək, içmək öyrənir.







## OKAPİ

Okapi çox nadir heyvandır. Afrikada yaşayır. Soyuq iqlimə də alışır. Erkəklərinin xırda buynuzu olur. O, zebr və zürafə cinsinə mənsubdur. Okapi öküz irilikdədir. Okapi ilk dəfə 1901-ci ildə tapılmışdır. Gecələr otlayır, gündüzlər yatır.

## FİL

Şəkildəki Afrika filidir. Bu fillər Hindistan fillərindən böyük olur. Afrika filinin dişi Hindistan filinin dişindən gözəldir. Fil çox yaşayan ağıllı heyvandır.
Əhliləşdirilmiş fil ağır yük daşıya bilir və çox xeyir verir. İngilis ordusunda saxlanan hər bir filə gündə səksən kiloqram quru ot, iyirmi kiloqram təzə ot, yeddi kiloqram dən, altmış qram duz və otuz qram yağ sərf olunurdu.





## QARIŞQAYEYƏN

Bu qeyri-adi bir heyvandır. Uzun burnu var, kiçik ağzında dişi yoxdur. Ucu yapışqanlı dili silindr şəklindədir. Qarışqayeyən yalnız gecə ova çıxır. Qabaq ayaqları güclülüyü və iti caynaqları ilə dal ayaqlarından fərqlənir. Qarışqayeyən bu caynaqlarla yeri qazır, özünə'yemək tapır, əsasən qarışqa yeyir. Qarışqayeyən rastlaşanda ən iri heyvanlarla da döyüşür.
Qarışqayeyən yumaq kimi yığılıb quyruğu ilə üstünü elə örtür ki, balığa bənzəyir. O, qeyri-adi dilini qarışqaların dərin yuvasına soxub, neçə yüz qarışqanı birdən tutur.



## ZİREHLİ

Yarım metr boyu olan bu heyvan kolluqda yaşayır. Bədəni sümük zirehlə örtülüdür. Zireh onu yırtıcı heyvanlardan qoruyur. Təhlükə üz verəndə zirehli top kimi yumrulanır, yeri elə qazıyır ki, gizlənəndə yalnız zirehi görünür. Ot yeyir, yuvasından gecələr çıxır. Zirehlinin daimi yuvası olmur. Özü üçün çox sürətlə yuva qazır, istədiyi zaman yuvasını dəyişir.







## BUQƏLƏMUN

Dərisindəki xüsusi hüceyrələrin fəaliyyəti ilə buqələmunun rəngi dəyişir, qırmızı, sarı, yaşıl, boz, ağ və qara olur. Buqələmunun rənginin dəyişməsi dayandığı yerdən, mühitin istiliyindən, işıqdan və rütubətdən asılıdır.
Buqələmunun hər gözü bir tərəfə baxa bilir. Buqələmun selikli maddə ifraz edən dilini çıxarıb içəri çəkməklə üzərinə yapışan ovlarını tutur.



## ÖRDƏKBURUN

Ördəkburuna bu ad burnunun görkəminə görə verilib. Sürünəndir. Samur, köstəbək və balıq xasiyyətlidir. Su kənarında yaşayır, qabaq ayaqları ilə üzür. Qurd və ilbizləri yeyir.
Ördəkburunun erkəyi mahmızlı olur. Onun zəhər ifraz edən vəziləri vardır. Bu vəzilərdən çıxan zəhər mahmızlara tökülür.



## QONUR AYI

Qonur ayı çox güclü heyvandır. Yırtıcıdır. Dağ meşələrində yaşayır. Yayda yeyib kökəlir. Dərisinin altındakı piy qatı qalınlaşır. Qışda kahasına çəkilib qış yuxusuna gedir. Ayı balaları da qışda doğulurlar. Hər dəfə bir, ya iki bala doğulur.
Ayının dərisindən, ətindən və piyindən istifadə edirlər. Bədəninin ağırlığına baxmayaraq saatda 60 km-ə qədər qaça bilir. Ağaclara dırmaşır, yaxşı üzür. 30-50 il ömrü var.



## AĞ AYI

Ağ ayı qütb ölkələrində yaşayır, tapdığı hər şeyi yeyir, bəzi vaxt suiti də tutur. Başqa şey tapmayanda ot da yeyir. Gəzəyən heyvandır, hətta gecələr belə mağarasında qalmaq istəmir. Əhliləşmir.
Ağ ayıya inanmaq olmur. Onu ələ öyrədəndə sahibinə də hücum edir. Üç metr boyu var; çox təhlükəli heyvandır.





## MORJ

Morj çox tənbəl heyvandır, saatlarla bir yerdə uzanıb qalır. Gündüzlər suya girir. Yalnız burnunu sudan çıxarıb nəfəs alır. Gecə sahilə yaxınlaşır, yosun və ot yeyir. Morj təzə doğduğu balasını birinci günlər sinəsinə sıxıb üzür. Morju dərisinə, piyinə, ağ dişinə görə ovlayırlar. Morjun uzunluğu yeddi metrə qədər olur.



## SUİTİ

Suitilər sürü ilə dənizdə üzür, səs-küylə akrobat kimi suda atılıb-düşürlər. Erkək suitilər dişilərdən ötrü bir-birlərinə hücum edirlər.
Suitilər xəstə və qocalmış suitiləri öz dəstələrindən qovurlar.





## DƏNİZ ATI

Dəniz atı kiçik və qəribə balıq növüdür. O, dənizlərdə yaşayır, erkəklərinin qarnında kisə əmələ gəlir, dişiləri həmin kisəyə kürü tökür, bu yolla çoxalırlar, balalarını suda çətin görmək olur, onların yaşıl rəngi dəniz yosunundan seçilmir.
Dəniz atı dəniz yosununun üstündə yaşayır, quyruğunu yosuna bənd eləyir. Keçmişdə inam vardı ki, dəniz atını qurudub xırdalayanda ondan təsirli dərman düzəlir.



## DƏNİZ BAĞASI

Dəniz bağası iri heyvandır. Bəzilərinin uzunluğu bir metrə qədər olur. Balıqçılar dəniz bağasını qiymətli ətinə görə ovlayırlar. Dəniz bağası az üzür, çox zaman dalğaların üzərinə çıxır.
Dəniz bağası yosun yeyir. Yumurtasını sahildə quma basdırır. İldə üç yüz-dörd yüz yumurta yumurtlayır.







## PİTON

Ən iri ilanlardan biri Şah pitondur. Bu ilan Asiyanın sıx meşələrində və Afrikanın qərbində Atlantik okeanı sahillərində yaşayır. Müxtəlif heyvanları tutub udur. Pitonu zooparklarda da saxlayırlar. Piton zəhərsiz ilandır. Afrikada yaşayan pitonun uzunluğu altı metrə çatır. Pitonun başı insanın yumruğu boyda olmasına baxmayaraq donuz balasını və ya balaca bir antilopu uda bilir.



## QURBAĞA

Qurbağa bataqlıqda, gölməçədə yaşayır, quruldayır, səsi ətrafa yayılır. O elə hey cücü tutur. Qurbağa çoxlu soxulcan və ağcaqanad yeyir. Qurbağa kürüsü çömçəquyruğa çevrilir, o da böyüyüb qurbağa olur. Qurbağaların elə bir növü var ki, onları uzağa atılmaq yarışlarında iştirak etmək üçün öyrədirlər. Üç sıçrayışda ən uzaq məsafəyə atılan qurbağanın adını minlərlə tamaşaçının qarşısında elan edirlər.



## ÖKÜZ

Öküz yük daşımaqda və yer şumlamaqda insanın köməyinə çatırdı. İndi öküzün əvəzinə maşın və traktor işləyir. Öküzü isə ətinə və gönünə görə saxlayırlar. Keçmişdə Misirdə yaşayan adamlar öküzə uro deyirdilər. Öküzləri ibtidai insanlar əhliləşdiriblər.





## QOYUN

Heyvandarlıq üçün qoyun çox qiymətlidir. Yunu qırxılır, toxuculuqda istifadə edilir. Qoyunun ətindən dadlı xörəklər hazırlanır, südü içilir.
Qoyunu eramızdan hələ çox-çox əvvəl ev heyvanı kimi saxlayıblar. Sürü saxlayan qəbilələr üçün qoyun böyük sərvət olub. Qoyun ağzı hara düşsə, baş alıb gedir, it isə sayıqdır. Buna görə də qoyun sürüsünü gözləmək üçün it saxlayırlar.



## KEÇİ

Keçinin südü içilir, dərisindən ayaqqabı və çanta üçün istifadə olunur. Keçinin (əsasən balasının) əti də dadlı olur. Keçi az yemlə dolanır. Keçi hər ölkədə, hər bir iqlim şəraitində yüksək dağlarda, düzənlərdə yaşaya bilir. Keçiyə yetim inək də deyirlər. İnəyin çıxa bilmədiyi yerlərdə keçi otlaya bilir.





## DONUZ

Donuzu hamı ev heyvanı kimi tanıyır. Donuzun əti həm təzə-təzə, həm də qurudub yeyirlər. Donuz piyi və kolbasası da məşhurdur. Donuzun dərisi də faydalıdır. Donuz bəzən iyirmi bala verir. Donuz balasının hərəsi yarım kiloqram olur. Bir ildə iki yüz kiloqrama qədər artır. Donuzu ilk dəfə çinlilər saxlamışlar.



## DƏVƏ

Bu qəribə heyvanın belində bir ya iki hürgüc olur. Dəvəyə "səhra gəmisi" deyirlər. Dəvə istər səhra və yaylada, istərsə də dağlıq yerlərdə həm yük daşımaq, həm də minik üçün çox əlverişlidir. Dəvə günlərlə susuz qala bilir, otla yemlənir. Uzaq yolda hər nə olsa yeyir, quru dəri də yesə həzmə verə bilir.
Dəvə çox dözümlü və faydalı heyvandır; yüklü halda da bərk qaça bilir. İki yüz kiloqrama qədər yük daşıyır.



## AT

At insana fayda və zövq verən ev heyvanıdır. Atlar güclü və işlək olur, ağır yükləri asanlıqla çəkib aparır, yorulmaq bilmir. Bəzi atlar çox sürətlə qaçır.
At Avropaya Ərəbistandan gətirilmişdir. Amerikaya isə atı ispaniyalılar 1519-cu ildə aparıblar. Atlı adamları ilk dəfə görən yerlilər onları ilahi qüvvə sanıb pərəstiş edirdilər.







## ULAQ

Ən yaxşı ulaq Sardiniya ulağıdır. Şəhər parklarında onu arabaya qoşub uşaqları əyləndirirlər. Ulaq mülayim, insana tabe bir heyvandır. Yeganə nöqsanı budur ki, bəzən yüklü ulaqlar yolun ortasında dayanıb tərpənmir. Ulağa çəkdiyi zəhmətə görə yem verirlər. Yemi də quru ot və tikanlı bitkilər olur.



## QATIR

Qatır doğub törəməyən heyvandır. Qatarın atası at, anası isə ulaq olur. Qatır dağ cığırları ilə asanlıqla gedir, yük daşıyır. Bəzən yolda dayanır, irəli getmək istəmir. Sahibini acıqlandırır. Qatır kimi inadkardır, - sözü də buradan əmələ gəlib.





## İT

Panter cinsindən olan bu alabəzək it ovu asanlıqla axtarıb tapır. Ov qaçmasın deyə ovçu çatana kimi yerindən tərpənmir. Çətin anlarda da dözümlü və sayıq olur. Keçmişlərdə almanlar iti çox qiymətləndirirdilər. Onu incidəni, acıqlandıranı cəzalandırırdılar.



## ESKİMOS İTİ

Bu çox faydalı itdir. Çətin vaxtlarda adama kömək edir. Eskimos iti lazım gələndə sahibi üçün öz canından keçir. Sahibinə çox sədaqətli olur. Ağ ayı ilə də vuruşa bilir, çox güclüdür.
Eskimos iti xizəyə qoşulur. Ağır yükü ən uzaq yerlərə apara bilir.



## PİŞİK

Pişik siçanın düşmənidir. Pişik çox yaxşı görür, qulağı iti eşidir. Pişiklər müxtəlif olur. Ən yaxşı cins Siam pişiyidir. Bu pişiklər həlim xasiyyətli olur. Anqor pişiklərinin isə tükü uzun və yumşaqdır. Onlar evdən ayrılmır.
Qədim Misirdə pişiyi müqəddəs heyvan sayırdılar, ona Mau deyirdilər. Romalılar da pişiyi öldürənləri xalq mühakiməsinə verirdilər.





## SİÇAN

Siçan dünyanın hər yerinə yayılmış hiyləgər gəmiricidir. Pendirdən tutmuş parçaya qədər hər şeyi gəmirir. Siçanlardan yalnız ağ siçan laboratoriyalarda təcrübə üçün saxlanılır. Siçanlar kənd təsərrüfatına çox ziyan vurur. Siçan qorxaq deyil. O, kiçik kağız parçaları ilə oynayır, yuvasında da kağızdan özünə yataq düzəldir.



## MAYBÖCƏYİ

Mayböcəyi sürfə və pup şəklində iki il yerin altında yaşayır. Bitkilərin köklərini və soğanaqlarını yeyir. Mayböcəyi may ayında görünür. Axşamüstü torpaq yuvasından çıxır, meyvə ağaclarının yarpaqlarını yeyir. Mayböcəyi bir neçə həftə yaşayır.





## CIRCIRAMA

Alabəzək cırcırama çox gözəldir. O, suya yaxın yerlərdə yaşayır. Zərif və cəlddir. Uça-uça həşəratı havada tutur. Sulardakı çömçəquyruq və sürfələrlə qidalanır. Cırcırama ovunu qüvvətli qabaq ayaqları ilə tutur, parçalayıb yeyir. Ova şığıyıb hücum etməsinə görə cırcıramaya kəpənəklər aləminin çalağanı deyirlər.





## KƏPƏNƏK

Kəpənək çiçəyə bənzəyir, gözəlliyinə görə ona uçan çiçək də demək olar. Kəpənəklər rəngbərəng olurlar. Kəpənək yumurtalarla artır, yumurta tırtıla dönür, sonra barama olur və kəpənək çıxır. Tırtıllar çox acgözdülər, onlar nə olsa yeyirlər, bitkilərə çox zərərləri dəyir. Kəpənək özü isə çiçəklərin tozlanmasına kömək edir. Kəpənəyin ömrü az olur iki-üç gün yaşayır. Yumurta qoyandan sonra ölür.

## ƏQRƏB

Əqrəblər cürbəcür olur. Onların bəzisi insan üçün qorxuludur. Əqrəbin bədəninin qabaq hissəsində qısqacları var. Əqrəb ovunu bu qısqaclarla tutur, əqrəbin arxa hissəsində zəhərli neştəri vardır. Bununla o, tutduğu ovu sancıb zəhərləyir. Əqrəb quru və isti yerlərdə yaşayır. O daha çox diri həşəratlarla qidalanır. Dişi əqrəb bir neçə gün öz balalarının üstündə olur. Balalar dişi əqrəbdən uzaqlaşmayanda onları tutub yeyir.







## PARƏBÜZƏN

Parəbüzən cürbəcür rənglərə çalır: qırmızı, sarı, ağ. Parəbüzənin üstü xal-xal olur qara xırdaca xallar. Parəbüzən bitkiləri məhv edən zərərli həşəratları yediyi üçün faydalı böcək sayılır.
Bitkilərə zərər verən həşəratı məhv etmək üçün o sahəyə parəbüzən buraxırlar.

## EŞŞƏKARISI

Eşşəkarısı adi arıya bənzəyir. Rəngi bir az açıqdır, az yaşayır. Ana arının ömrü daha az olur. Bu arılar cücü və ət yeyir. Torpaqda ana arı ağac ovuntusundan kiçik şanlar qurur və hərəsinə bir yumurta salır. Bundan başqa cücülərin sürfələri üstünə yumurtalar salır, onları çəkib yuvasına gətirir.







## BAL ARISI

Baharda hər ana arı erkək və işçi arılar yetişdirmək üçün münasib yerdə pətək düzəldir. Bal arısı mum ifraz edir və bundan xırda gözcüklü şan qurur. Hər gözcüyə ana arı bir yumurta salır.
Bal arısının hər pətəyində ana arı ilə bərabər işçi və erkək arı olur.

## İPƏKQURDU

İnsanlar ipəkqurdunu qədim zamanlardan tanıyırlar. Əvvəllər özü qidalanırmış. İndi isə bəslənir. Qurd tut yarpağını yeyib yapışqanlı şirə ifraz edir, bu şirə bərkiyib ipək tellərə dönür.
İpəkqurdu hazırladığı ipək tellərdən öz ətrafında üç günə barama toxuyur, özü baramanın içində qalır.







## HÖRÜMÇƏK

Hörümçək çox bacarıqlı tor əyirən, tor qurandır. O çox nazik tor hörür. Tora çoxlu cücü düşür. Hörümçəyin çoxlu növləri vardır. Onlardan bəzisi zəhərli də olur. Tora saldığı cücüləri hörümçək zəhərli iynələri ilə sancıb öldürür.
Hörümçək toru həm hörümçəyi, həm də onun balalarını qoruyur, qoyduğu yumurtanı isti saxlayır.

## QARIŞQA

Qarışqa ta qədim zamanlardan bəri zəhmətsevərliyi ilə tanınır. O, işini nizamla qurur və işləməkdən yorulmur. Qarışqa dünyanın hər yerinə yayılmışdır. Yalnız soyuq Arktikada qarışqa olmur. Qarışqa dən, ot və şəkərli maddələr yeyir. Qarışqanın ifraz etdiyi şirəyə qarışqa turşusu deyirlər.
Qarışqada üç duyğu var görmək, eşitmək, qoxu duyğusu.





## MİLÇƏK

Milçək yer üzündə çox yayılmış, sürətlə artıb-törəyən, xəstəlik yayan bir həşəratdır. O uçub hər yerə qonur zibilə də, xörəyə də, insanın üstünə də. Milçək hər şey yeyir. Milçəyi hətta zəhərli kimyəvi maddələrlə də məhv etmək çətindir.
Milçəkləri məhv etmək üçün DDT adlanan zəhərli, öldürücü maddələr işlənir. Lakin milçəklərin nəsli get-gedə bu zəhərli maddələrə də öyrəşir, qırılmır.





## ATƏŞBÖCƏYİ

Yay gecələrində çəmənlərdə çoxlu parıldayan işıqlar görünür, bunlar atəşböcəyidir. Atəşböcəyi ilbizlərin üstünə zəhərli maddə çiləyir, öldürüb yeyir. Sonra da ilbizin yuvasına girir.
Braziliyada olan atəşböcəklərdən yerlilər batareyalı cib fanarı kimi istifadə edirlər. Atəşböcəyinin işığı onun bədənində gedən kimyəvi proseslə bağlıdır.





## SİSƏK

Sisək bizim çöllərdə də çox yayılmış həşəratlardandır. O, rütubətli, ancaq günəşli yerdə yaşayır. Özü üçün torpaqda yuva qazır, ayaqlarını cırıldadır, bu onun nəğməsi hesab olunur. Sisək ot, dən, həşərat yeyir. Erkək sisəklər dişiləri uğrunda bir-birilə kəskin mübarizə aparırlar.



## MARALBÖCƏK

Bu iri cücüyə çənəsində buynuz olduğuna görə belə ad verilmişdir. Böcəyin dişisi erkəyindən çox kiçik olur. Yuvasından az-az çıxır. Buynuzlu maralböcək palıd və şabalıd meşələrində yaşayır, onun sürfələri ağac şirəsi yeyir və ağaca böyük zərər vurur.
Buynuzlu maralböcəklər ancaq gecələr üzə çıxırlar.





## İLBİZ

İlbiz rütubətli yerlərdə yaşayır. Onun dilində çoxlu sümük kimi bərk xırda çıxıntılar var. İlbiz yarpağı, cücüləri, qurdları yeyir. Payızda soyuqlar düşəndə yumrulanıb zirehinə girir və onu selik pərdə ilə bağlayır.
İlbiz illərlə yeməksiz və susuz qala bilir. Bəzi ölkələrdə ilbizləri bişirib yeyirlər.

## ADİ TİKANBALIQ

Bu balığın pulları olmur. Avropa çaylarında, dənizlərə yaxın yerlərdə yaşayır. Adi tikanbalıq acgöz olur. Çayın dibində yosundan qolbaq şəklində yuva düzəldir; dişi balıq həmin yuvada kürü tökür, yuvasının yanında dayanıb ona göz qoyur. Tez-tez üzgəclərinin hərəkəti ilə yuvasının suyunu dəyişdirir.







## UÇAN BALIQ

İsti ölkələrin dənizlərində yaşayır. Uçan balıq əslində uçmur, dənizdən qüvvətlə sıçrayıb qırx metrə qədər atıla bilir. Qanad şəklində üzgəcləri var. Döş üzgəcləri yanlara açılır, quyruq üzgəcləri isə sağa-sola dönməyə kömək edir.

Uçan balıq ancaq dənizin coşqun dalğalı zamanında küləyin gücündən istifadə edib uçur. Küləyin istiqamətində atılır.

## KİRPİ-BALIQ

Bədənini tikan bürüdüyü üçün buna kirpi-balıq deyirlər. Bu balıq çox üzmür, dalğaların üstündə qalmağı sevir. Qovuğu hava ilə dolanda dərisi genəlir və kirpi-balıq şara oxşayır.
Kirpi-balığın həm dərisi, həm daxili orqanları zəhərlidir.







## NARVAL

Narval ət yeyən balıqdır. Böyük "buynuzu" var. Buzlu dənizlərdə yaşayır. Dişisi buynuzsuz olur. Eskimoslar narval ovundan çoxlu qazanc götürürlər. Onun dərisi, əti, yağı, dişi və bağırsağı lazımdır, bağırsağı ilə paltar tikirlər.
Keçmişdə adamlar narvalın dişindən müalicə üçün istifadə edirdilər.



## ALA BALIQ

Ala balıq Alp göllərində, dağ çaylarında və təmiz axar sularda yaşayır, müxtəlif rəngdə olur. Əti çox dadlıdır. Ala balıqların bəzisinin ağırlığı on-on bir kiloqrama çatır. Ala balığı süni göllərdə də yetişdirirlər.
Ala balıq kürünü gecələr tökür. Bir kiloqram ağırlığında ala balıq iki minə qədər kürü tökür.



## MİŞAR-BALIQ

Bu balıq uzun burnunun iki tərəfində mişar kimi dişləri olduğu üçün mişar-balıq adlanır. Burnu ilə qumu qazır və tapdığı xırda balıqları, xərçəngləri, ilbizləri yeyir. O, balinadan da qorxmur, onu burnu ilə yaralayır.
Mişar-balıq özünü balıq dəstəsinin arasına vurur, burnunu o yan-bu yana çalaraq mişar dişləri ilə balıqları çapıb öldürür və yeyir.





## DELFİN

Delfin kiçik balina cinsinə aiddir. Yüksəyə atılmağına, cəld hərəkətlərinə görə ona "dəniz akrobatı" deyirlər. Delfinlər böyük dəstələrlə üzürlər. Gəmilərin qabağında günlərlə suya baş vurub hünər göstərirlər.
Delfin ağzını açıb kiçik balıq dəstələri olan yerlərdə sürətlə üzür, ağzına düşən kiçik balıqlarla qidalanır.



## KÖPƏKBALIĞI

Köpəkbalığı ən yırtıcı dəniz heyvanıdır. Onun cəhəngində möhkəm, uzun, iti dişləri var. Köpəkbalığı sürətlə üzür, ov etməkdən doymur. İnsana da hücum edir. Köpəkbalığının cəhəngi və mədəsi elə yekədir ki, suitini diri-diri udur.



## BALİNA

Balina dəniz nəhəngidir. Onu çoxlu piyinə və sənayedə işlənən gərəkli dişlərinə görə ovlayırlar. Balina dişləri ilə heç bir şey çeynəmir. Ancaq kiçik heyvanları ağzında dişləri ilə saxlayır. Balinanın başlıca yemi xırda dəniz heyvanlarıdır.
Balina balasını əmizdirir. Nəhəng olmasına baxmayaraq boğazının yolu iyirmi beş santimetrdir, buna görə iri balıqları uda bilmir.







## TUTUQUŞU

Tutuquşuların vətəni Avstraliyadır. Tutuquşu çox yaşayır, insanlardan "danışmaq" öyrənir. Bəzən qısa, bəzən isə uzun kəlmələri, cümlələri təkrar edə bilir. İdman etməyi də öyrənir, akrobat kimi oynayır.
Kiçik tutuquşuna lələklərinə görə "oxuyan tutuquşu", aramsız cikkildəməsinə görə oxuyan "tutuquşu" da deyirlər. Tutuquşu bir ildə təxminən iyirmi kiloqram dən və bir o qədər də meyvə yeyir.



**TUTUQUŞU**

"Ara" cinsindən olan bu quş Orta və Cənubi Amerikanın meşələrində yaşayır. Onun uzunluğu bir metrə çatır. Tutuquşu çox yaşayır (yüz il ömrü olur). Bu tutuquşular çox söz öyrənir, yaxşı danışır.

"Ara" cinsindən olan tutuquşu tutuquşuların ən yaxşısıdır. Keçmişdə braziliyalılar ona azadlıq simvolu kimi baxırdılar. Tutuquşunun lələklərini qatranla bədənlərinə yapışdırıb özlərini bəzəyirdilər.



**LİRA QUŞU**

Bu quş hindtoyuğu böyüklüyündədir, dağ meşələrində yaşayır. Cücü və qurd yeyir.

Lira quşu bəzən başqa heyvanların, hətta insanın səsini yamsılayır.





## TUKAN

Tukan Argentina və Qviana meşələrində yaşayır. Çox acgözdür. Başqa quşların yuvasından yumurta oğurlayır. Bəzilərinin dimdiyi bədənindən də uzun olur. Meyvəni dimdiyi ilə qoparıb yuxarı atır, göydəcə tutub yeyir. Bir zamanlar yerli əhali tukan ətini çox qiymətli sayırmış.





## AĞACDƏLƏN

Ağacdələnlər cürbəcürdür: böyük ağacdələnlərin rəngi alabəzəkdir, kiçiklərininki yaşıl. Ağacdələnin uzunluğu iyirmi beş santimetr olur. Ağacdələn bir anda ağaca qonur, caynaqlarını ilişdirib ağacı dimdiyi ilə döyəcləyir və dəlir.

Ağacdələn ağacların gövdəsinə daraşan qarışqaları məhv etməkdə böyük iş görür. Yapışqanlı dililə minlərlə qarışqanı çəkib yeyir.



## ŞANAPİPİK

Bu quşun lələkləri olduqca gözəldir. O, yem axtaranda həmişə narahat-narahat boylanır. Şanapipiyin başında yelpinc kimi lələklər var, cücü ovlamağa gedəndə bub-bub-bub-bub edir. Şanapipik insandan qorxmur. Zərərli cücüləri məhv edir. Şanapipiyə hop-hop da deyirlər. Hop-hop gün işığında pis qoxu verir, buna görə düşmənləri onu rahat buraxıb kənar dolanırlar.





## BAYQUŞ

Bayquşun qəhvəyi-sarı lələkləri, narıncı-sarı gözləri var. Aprelin əvvəlində ana bayquş yuvaya 2-4 yumurta qoyur. 35 gündən sonra yumurtalardan xırdaca bayquşlar çıxır. Bayquş xırda heyvanları və kiçik quşları tutub yeyir. Gündüzlər yuvasında oturub gecələr ova çıxır. Bayquş çox yaxşı eşidir.

## DOVDAQ

Bu, böyük quşdur, bəziləri hindtoyuğu boyda olur; düzənlikdə yaşayır, ot, cücü və xırda onurğalı heyvanları yeyir. Dovdağı ilin müəyyən fəslində, dadlı ətinə görə ovlayırlar. Dovdaq bərk qaçır, ancaq nadir halda uçur.





## DƏVƏQUŞU

Dəvəquşu ən iri quşlardandır. O, səhraların kol-koslu yerlərində yaşayır. Dəvəquşu çox acgözdür. Çoxlu ot və xırda məməli heyvanlar yeyir. Vaxtilə dəvəquşunu gözəl lələklərinə görə ovlayırdılar. Həmin lələklərdən bəzək işində istifadə edirdilər.
Dəvəquşu hər nə udsa (daş, mıx, şüşə və s.) həzm edə bilir. Dəvəquşu bərk qaçır. O, saatda əlli kilometr yol gedə bilir.





## PİNQVİN

Bu quş cənub qütbündə yaşayır, uçmur, ancaq yaxşı üzür. Daşlı adalarda məskən salır. Çılpaq qayaların üstündə yumurtlayır. Balaları yumurtadan çıxanda onlara yem verir, üzmək öyrədir.
İnsanlar pinqvin yumurtasını yemək üçün yığırlar. Pinqvinlər böyük dəstə ilə bir yerə yığışanda da hər pinqvin öz balasını tanıya bilir.



## DƏNİZ TƏLXƏYİ

Bu quş buzlu dənizlərdə olan yeganə qeyri-adi quşdur, qısa dimdiyinin ucu qırmızı, ortası sarı, kökü isə bozumtuldur. İki tərəfdən dimdiyinin küncündə qırmızı düymə var. Dəniz təlxəyi cəlddir, iti üzür və balıq tutur. Balıq və ilbizlərlə qidalanır. Quruda cəldlik göstərə bilmir. Pinqvinə oxşayır. Dəniz təlxəyinin dimdiyi payızda solğun olur, codlaşır.



## QAĞAYI

Qağayı dəniz sahilində çox olur. Bu quşlar çayların və göllərin sahillərində də yaşayır. Böyük dəstələrlə uçur; balıq, ilbiz və kiçik qurdlarla qidalanır, gəmilərdən suya tökülən qırıntıları yeyirlər. Qağayılar sahilə çıxanda çığırtı salırlar.
Qağayılar ən küləkli havada da uçur. Onlar küləyin istiqaməti ilə süzür, asanca enib-qalxırlar.







## QARANQUŞ

Qaranquş baharın ilk müjdəçisidir. O, insandan çəkinmir, yuvasını evlərin eyvanında tikir. Qaranquş ağcaqanadı, milçəyi və başqa həşəratı məhv edən faydalı quşdur. Zərərvericiləri məhv etdiyi üçün qaranquşu vurmaq, öldürmək olmaz.



## GÖYƏRÇİN

Səyyah göyərçin adlanan göyərçinlər uzaq yollar keçirlər. Onlar saatda yüz kilometr uça bilirlər. Qədim zamanlarda göyərçinin ayağına məktub bağlayır, onu uzaq yerlərə göndərirdilər. Göyərçin məktubu ünvana səhvsiz çatdırırdı.





## LEYLƏK

Leylək uzunayaqlı ağ quşdur. Ata və ana leylək birlikdə hündür ağacların lap təpəsində, işıq dirəklərinin başında yuva qururlar. Leyləklər yazda uçub gəlir, yuva qurur, yumurta qoyub bala çıxarır, payız düşəndə isti ölkələrə gedirlər. Deyirlər ki, leyləklər qış aylarını Səudiyyə Ərəbistanında keçirirlər. Müqəddəs Məkkə şəhərini gəzib gəldiyinə görə leyləyi "hacıleylək" də adlandırırlar.



## CƏNNƏT QUŞU

Bu quşa lələklərinin gözəlliyinə görə cənnət quşu deyirlər. Cənnət quşunun erkəklərinin lələkləri daha yaraşıqlıdır. Başı, qanadları və quyruğu sarı, qırmızı və narıncı rəngə çalır. Cənnət quşunun lələkləri bəzək üçün işlədilir. Bu quş o qədər də çox uçmur, az uçan quşlardandır. Cənnət quşu ilin bəzi vaxtında oxuyub-oynayır. Səsi qarğa səsinə bənzəyir.





## ŞƏFƏQ QUŞU

Döşü şəfəq rəngində olduğuna görə ona şəfəq quşu deyirlər. Bu quş çox soyuq iqlimdə yaşaya bilir. Ona görə də qışda başqa ölkələrə uçmur. Balaları uçmaq öyrənənə kimi onlara yem daşıyır.
Şəfəq quşu cəld quşdur, onun gözəl səsi var. İnsandan qaçmır.



## BOZ ŞAHİN

Boz şahin yırtıcı quşdur. Havadan ovunun üstünə şığıyır, iti caynağı ilə ovu yaralayıb tutur.
Boz şahın yuvasını xarabaların ən hündür yerində qurur.
Ovçular onu əllərində gəzdirib ovun üstə şığıdırlar.



## QU QUŞU

Kral qu quşları başqa qu quşlarından çox gözəl olmaları ilə (qara, ağ qu quşlarından, vəhşi qu quşlarından, oxuyan qu quşlarından) fərqlənir. Dəstə ilə yaşayırlar. Yaraşıq üçün gətirilib gölə buraxıldıqda oraya tez alışır, uçub getmirlər.





## BALIQCIL

Bu quş mülayim iqlimli ölkələrdə yaşayır. Kiçikləri sərçə, böyükləri isə çöl ördəyi irilikdə olur. Balıqcıl balıq, ilbiz, xırda xərçənglər yeyir. Balıqcılların çoxlu növləri vardır. Balıqcıl balıq tutmaq üçün suya əyilən budaqlarda gizlənir. Balığı görən kimi atılıb tutur. Ovunu meşənin sakit və sıx yerinə aparıb yeyir.





## QUTAN

Qutan balığı çox sevir, su kənarlarında yaşayır. Onu uzaqdan da tanımaq olur. (Qanadları açılanda uzunluğu üç metrə çatır.) Qutan orta Amerikada daha çox olur. Dimdiyinin altındakı dəri kisə ilə balıq tutur, kisəyə on litr su dolur.
Qutanlar dəstə ilə ova çıxıb balıq ovlayırlar. Bu quşlar dövrə vurub balıqları qova-qova sahilə gətirir, suyun dayaz yerində asanlıqla tuturlar.



## KƏKİLLİ DURNA

Kəkilli durna orta Afrikada, qamışlıqda suya yaxın yerlərdə yaşayır. Cücü və dən yeyir. Asanlıqla ələ öyrənir. Çox gözəl və incə quşdur.
Kəkilli durna qeyri-adi bir şey görəndə qanadlarını açır, gah bu, gah o biri ayağı üstə başqa yerə qaçır.





## MANDARİN ÖRDƏYİ

Ördək cinsindən olan bu quş Çində və Yaponiyada yaşayır. 1830-cu ildə Avropaya parklardakı gölləri bəzəmək üçün gətirilib. Çində ali dövlət məmurlarına "mandarin" deyirlər. Həmin quşun adı buradan alınmışdır. Onlar bu quşa müqəddəs quş kimi baxırlar. Ana mandarin ördəyi çox həssas olur. Kənarda çubuqlardan, çör-çöpdən balaları üçün yuva tikir ki, suya düşməsinlər.



## KEÇƏL KƏRKƏS

Keçəl kərkəs quşların ən yırtıcılarındandır. Qanadları açılanda üç metrdən də uzun olur. Çirkin görünüşlü bu quş leş, cəmdək yeyir. Keçəl kərkəsin əsas məkanı Kordilyer dağları və Kaliforniyadır.





## QIRQOVUL

Qırqovul elə quşdur ki, onu gözəl lələkləri ilə də tanıyırlar. Qırqovulun əti çox dadlı olur. Qırqovul çox olan yerləri mahir ovçular yaxşı bilirlər. Qırqovul qəfəsdə də saxlanılır.

Qırqovul yaxşı qaçan, az uçan quşdur. Təhlükə hiss etdikdə qanadlanıb uçur. Ağacların sıx budaqlarında gizlənib gecələyir.



## QARTAL

Qartal ən iri və ən yırtıcı quşdur. Qartala Avropanın dağlarında rast gəlmək olur, yuvasını ən yüksək zirvələrdə tikir. Qoyuna və kiçik heyvanlara hücum edir. Dəniz qartalları da vardır.





## BÖYÜK TETRA QUŞU

Böyük tetra quşu Avropa və Asiya meşələrində yaşayır, dən və yarpaq yeyir. Tetra quşları dalaşanda bərk dimdikləşirlər. Hətta bir-birlərini vurub öldürürlər. Tetra quşunun uzunluğu bəzən bir metrə çatır. Tetra quşuna çöl xoruzu (meşə xoruzu) da deyirlər.



**SARIBÜLBÜL**

Sarıbülbülə gözəl səsinə görə "nəğməkar quş" da deyirlər. Vətəni Kanar adalarıdır, buna görə də sonralar ona Kanarye quşu adı verilmişdir. Sarıbülbülün dişiləri cikkildəyir, amma erkəkləri gözəl səslə oxuyur. Sarıbülbülün yemini müxtəlif bitkilərin dənindən düzəldirlər, onlar göyərti də yeyirlər. Vəhşi sarıbülbüllərin lələkləri rəngbərəng olur.





**BAĞBAN-QUŞ**

Bu lələkləri tünd kiçik quşun vətəni Malukk adalarıdır. O, torpağın üstündə nazik qamışdan yuva hörür. Yuvasının qabağına rəngbərəng çiçəklər düzür. Vaxtaşırı yuvasının qabağındakı çiçəkləri dəyişdirib təzələyir.



## BƏNNA SƏRÇƏ

Bu sərçə də adi sərçələrə bənzəyir. Bənna sərçələr birlikdə ağac başında dam düzəldir. Bəzən damın uzunluğu iki metrə çatır. Onlar cüt-cüt olub bu damın altında özlərinə ayrıca yuva tikir. Yuvaya aşağı tərəfdən yol qoyurlar. Bənna sərçələr cəld, acgöz və səs-küylü olurlar. Böyük dəstələrlə yaşayırlar.
Bənna sərçələrin yuvaları yaşayış məntəqəsinə oxşayır. Bu məntəqələrin hər birində yüzlərcə kiçik yuva olur.



## KOLİBRİ QUŞU

Bu balaca, cəld quş yaşıl, qırmızı, sarı, boz rəngli olur. Ona ən çox Amerikada təsadüf edilir, sıx və çiçəkli meşələrdə yaşayır. Çünki belə meşələrdə çiçək, nektar, cücü, həşərat çox olur. Erkək kolibri quşları yazda dişiləri özünə cəlb etmək üçün cürbəcür akrobatik oyunlar çıxarır.
Kolibri balalarını dələ və qaranquşdan qoruyur. Kolibri balaları lap balaca olur, elə buna görə də onlara kiçik cik-cik deyirlər.



## HİND TOYUĞU

Beş yüz il bundan əvvəl hind toyuğu Amerikada sərbəst yaşayırmış. Avropalılar yeni dünyanı kəşf edəndən sonra hind toyuğu ətinin dadlı olmasını bilib onu əhliləşdirdilər. İndi dünyanın hər yerində hind toyuğu var.
Hind toyuğunu Amerikada hindilər tutub kəsərlərmiş, ətini yeyib lələkləri ilə paltarlarını bəzəyərlərmiş.
Hindilər hind toyuğunu bütlərinə (allahlarına) qurban kəsərdilər.





## QAZ

Qaz ətini insanlar çox qədim zamanlardan yeməyə başlayıblar. Qaz əti çox dadlıdır. Qazın tükündən yatacaq düzəldirlər. Toyuq və ördək kimi əhliləşdirilmiş qaz da uça bilmir. Ancaq çöl qazları çox uzaqlara uçur. İnsanlar əsrlər boyu qazın lələyindən qələm kimi istifadə etmişlər. (Metal qələm yalnız 1839-cu ildə icad olunmuşdur.) İtaliyada roman cinsindən olan qazlar ildə yüzə qədər yumurta verir.



## XORUZ

Xoruza toyuqların kralı deyirlər. O, toyuqları, cücələri başqa heyvanlardan qoruyur. Bəzi ölkələrdə xoruz döyüşdürmək adətdir. Xoruzlar döyüşəndə vaxt olur ki bir-birini dimdikləyib öldürürlər. Xoruz döyüşdürmək qədim Yunanıstanda, Romada bir adət imiş. İndi bizim zəmanəmizdə də Asiyanın bəzi ölkələrində əyləncə üçün xoruz döyüşdürürlər.





## TOYUQ

Toyuq yumurta verən ev quşlarındandır. Həyətdə gəzib dolanır, cücələrini qanadları altında qoruyur, yanında gəzdirir. Toyuğun qanadları olsa da, uça bilmir. Toyuğu bizim eramızdan üç min il əvvəl Hindistan xalqları əhliləşdirib. Amerikaya toyuq Amerikanın kəşfindən sonra gətirilmişdir.





ÖRDƏK

Ev ördəyi çöl ördəyindən uça bilməməsi ilə fərqlənir. Ev ördəyi həyətdə yaşayır, çöl ördəyi isə çöldə. Çöl ördəyi ovçular üçün qiymətli qənimət sayılır. Çöl ördəyinin əti daha dadlı olur. Çöl ördəyi göldə üzür, ona yaşılbaş sona da deyirlər.
Çöl ördəyi yuvasını qamışlıqda düzəldir. Yem dalınca gedəndə yuvasının üstünü qarnının altından yolduğu lələklərlə örtür. Kənardan həmişə öz yuvasına göz olur, balalarının keşiyini çəkir.





AĞ DOVŞAN



İTLƏ PİŞİYİN DOSTLUĞU





BƏZƏKLİ QUŞ



HACILEYLƏKLƏR



*Əziz uşaqlar, nəşriyyatımızın sizə töhfə etdiyi bu ensiklopediya Belqradın Nolit nəşriyyatının buraxdığı heyvanlar aləminin ensiklopediyasının mətn və şəkilləri əsasında hazırlanmışdır. Şəkillərin çoxu italyan rəssamı Alberto Matoninindir. Bəzi rəsmləri isə azərbaycanlı rəssam İsgəndər Kərimov çəkmişdir. Ensiklopediya iki kitabdan ibarətdir. Birinci kitab cücülər, balıqlar və quşlardan, ikinci kitab isə digər heyvanlardan bəhs edir.*

*Əziz balalar, nəşriyyatımız gələcək illərdə sizin üçün Azərbaycanın qoruq və yasaqlıqlarında mühafizə olunan heyvanlardan, torpaqlarımızda bitən nadir bitkilərdən bəhs edən şəkilli kitablar buraxacaq. «Dünya və insan» adlı şəkilli coğrafiya atlası isə sizə gözəl hədiyyə olacaq.*

«Maarif» nəşriyyatının direktoru
İsmayıl Nərimanoğlu

Kompyuter dizaynı: Fariz Cəfərov
Korrektor: Elmira Əliyeva
Redaktor: Elgün Ələkbərov
Texniki redaktor: Cavidan Ələkbərov

Formatı 60/84 1/8. Tiraj 500. Sifariş № 5.
Qiymәti 5 man. 50 qəp.

«Maarif» Dövlət Tədris Pedaqoji Ədəbiyyatı Nəşriyyatı